

*Təranə CAVADOVA*

## VƏTƏN BAYRAĞI!

Günahsız insanlar ahını alan,
Qarabağ yurdunda ruhları qalan
Uğrunda canından olanlar üçün
Dalğalan Dalğalan - Vətən Bayrağı!

Üçrəngli Bayraqlar dalğalandıqca
Torpaqda, Dənizdə, Səmalarımda
Sevinir yolunda candan keçənlər
Dalğalan Dalğalan - Vətən Bayrağı!

Xalqımın mərdanə mərd oğulları,
Keşiyində durur hər qarışında
Kor olsun gözləri nankor düşmənin,
Dalğalan Dalğalan - Vətən Bayrağı!

## ŞƏHİDLİK

Şəhidlik libası geyib əyninə,
Qan ilə yudular, qan yaddaşını
Yumruq tək birləşib döyüş zamanı
Düşmənə zərbələr vurdu şəhidlər!

Ölməzlik qazandı, Vətən üstündə
Heç bunu unudar bu Vətən, bu Xalq?
Göylərə ucaldı Ana fəryadı
Yazıldı bu Tarix Qan yaddaşına!

*2025*